## 2020-ci ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasında pərakəndə ticarət, iaşə və pullu xidmət sahələrinin inkişafına dair

2020-ci ilin yanvar-iyun aylarında ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3.806,1 milyon manatlıq əlavə dəyər yaradılmış və onun ÜDM-də xüsusi çəkisi 11 ,3 faiz təşkil etmişdir.

Hesabat dövründə əsas kapitala yönəldilmiş bütün vəsaitin 0,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinə sərf edilmişdir. 2020-ci il iyunun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı iqtisadiyyatın neft-qaz sektorunda 33,9 min nəfər, qeyri neft-qaz sektorunda isə 1.647,8 min nəfər olmuş və onların xidmət sahəsində fəaliyyət göstərənlərinin 17,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində cəmlənmişdir.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-iyun aylarında ölkənin pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılan malların həcmi 18.245,7 milyon manat təşkil etmişdir.

İstehlak mallarının 23,5 faizi ticarət müəssisələrində, 50,4 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 26,1 faizi isə bazar və yarmarkalarda satılmışdır. Hesabat dövründə pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı orta hesabla ayda 305,3 manatlıq və ya 2019-cu ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 2,0 manat çox əmtəə almışdır.

**2020-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu**




Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulatları 9.729,7 milyon manata bərabər olmuşdur. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi isə 8.516,0 milyon manat olmuşdur.

2020-ci ilin yanvar-iyun aylarında hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 162,8 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 142,5 manatlıq isə qeyri-ərzaq malları almışdır.

**2020-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu**




**İaşə xidməti**

2020-ci ilin yanvar-iyun aylarında əhaliyə 377,1 milyon manatlıq iaşə xidmətləri göstərilmişdir. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 45,3 faizi hüquqi şəxs statuslu müəssisələrin, 54,7 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların payına düşmüşdür. Hesabat dövrü ərzində hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövriyyəsinin həcmi 169,4 milyon manat olmuşdur.

**Pullu xidmətlər**

2020-ci ilin yanvar-iyun aylarında əhaliyə 3.339,9 milyon manat pullu xidmətlər göstərilmişdir. Hüquqi şəxslər tərəfindən əhaliyə 2.509,6 milyon manat xidmət göstərilmişdir ki, bu da ümumi xidmətlərin 75,1 faizini təşkil edir. Hesabat dövründə hər bir ölkə sakini orta hesabla 335,3 manatlıq müxtəlif növ pullu xidmətlərdən istifadə etmişdir.